BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2006

# İQTİSADİYYAT

## İQTİSADİ ARTIM VƏ İNSAN KAPİTALI

**İ.Ə.QARAYEV, S.Q.SULEYMANOVA**
***Bakı Dövlət Universiteti***

*Bu işdə iqtisadi artıma və onun əsas parametrlərindən biri olan insan kapitalına baxılır. Uzun illər iqtisadi inkişafı stimullaşdıran və ona təkan verən əsas amil kimi fiziki kapital və işçi qüvvəsi hesab edilmişdir.*

*İnsan kapitalı anlayışının meydana gəlməsi və onun iqtisadi artım prosesində rolunun artması riyazi-iqtisadi modelləşdirmədə yeni nəzəriyyələrin yaranmasına səbəb oldu. İnsan kapitalının Azərbaycanın iqtisadi inkişafına təsiri qeyd olunub.*

Müasir dövrdə dünyada baş verən qloballaşma prosesləri, ölkələr arasında inteqrasiya meyllərinin güclənməsi, informasiya mübadiləsinin genişlənməsi davamlı inkişafın əsas tərkib hissələrindən biri olan iqtisadi artıma təsir edən sosial-iqtisadi və innovasiya faktorlarının rolunun dəyişilməsinə səbəb olmuşdur. Bunun nəticəsində iqtisadi artıma təsir edən fiziki kapitalın yeniləşməsinə sərf olunan investisiyalarla yanaşı, insan kapitalının inkişafına yönəldilən investisiyalar daha əhəmiyyətli rol oynamağa başlamışdır. Bu isə öz növbəsində insan kapitalı və ona yönəldilən investisiya resurslarının iqtisadi artım prosesindəki rolunun təhlilini və onun model səviyyəsində araşdırılmasını tələb edir.

Son illər iqtisadi ədəbiyyatda "insan kapitalı" anlayışı geniş maraq doğurmuşdur. İlk dəfə iqtisadi nəzəriyyədə "insan kapitalı" termini Nobel mükafatı laureatı Çikaqo Universitetinin professoru Q.Bekker tərəfindən XX əsrin 70-80-ci illərində işlədilmişdir. Lakin ilk əvvəl insan kapitalının bir iqtisadi termin kimi işlədilməsi elmi ictimaiyyət tərəfindən qəbul edilməmiş və böyük mübahisələrə səbəb olmuşdur. Bunun əsas səbəbi onunla bağlı idi ki, iqtisadi artımın təmin edilməsində həlledici rol fiziki kapitala, müasir maşın və avadanlıqlara verilirdi. Bu zaman insanın bir işçi qüvvəsinin daşıyıcısı kimi rolu arxa plana keçirdi. Lakin sonralar insan inkişafı ideyalarının meydana gəlməsi onun qiymətləndirilməsi üçün insan inkişafı indekslərindən istifadə olunması insan kapitalına olan marağı xeyli dərəcədə artırdı.

İnsan kapitalının iqtisadi artım proseslərində rolunun artma-

sı, bu sahəyə yönəldilən investisiyaların kəskin surətdə artmasına səbəb oldu. Bu investisiyalar şirkətlərin yeni texniki nailiyyətlərə yiyələnməsi, işçilərin təhsil səviyyəsinin yüksəlməsi, təlimlərin keçirilməsi və s. bu tipli istiqamətlərə yönəldilməyə başladı. İnsan kapitalı nəzəriyyəsində təhsil və əhalinin sağlamlığı investisiyalarının tətbiq edildiyi əsas istiqamətlər kimi nəzərdə tutulur.

İnsan kapitalı anlayışının meydana gəlməsi və onun iqtisadi artım prosesində rolunun artması riyazi-iqtisadi modelləşdirmədə yeni nəzəriyyələrin yaranmasına səbəb oldu. Təhsil və sağlamlığa yönəldilən investisiya resursları eyni zamanda iqtisadi artıma təkan verən əsas amillər kimi nəzərdə tutulur. İnsan kapitalının inkişafı və onun nəticəsində insanda təşəkkül tapan təcrübənin, imkanların genişlənməsi əmək məhsuldarlığını yüksəldir, bu isə öz növbəsində iqtisadi artıma təsir göstərir.

İnsan bir tərəfdən iqtisadi inkişafın əsas obyekti, digər tərəfdən isə iqtisadi prosesi həyata keçirən bir vasitədir. Bu duallıq insan kapitalına xas olan əsas əlamətdir.

Bu isə onu göstərir ki, iqtisadi artım insan kapitalının keyfiyyətini yüksəltməklə əhalinin təhsil səviyyəsinin daha yüksək mərhələyə keçməsinə, iqtisadi artım isə gəlirlərin artmasına, əhalinin maddi rifahının yüksəlməsinə, insanların fəaliyyət göstərdiyi sosial-iqtisadi mühitin yaxşılaşmasına və ümumilikdə sosial kapitalın güclənməsinə gətirıb çıxarır.

Təhsil isə ölkənin milli sərvətini gücləndirir və eyni zamanda iqtisadi artıma da təsir göstərir.

Amerika iqtisadçılarının hesablamalarına görə ABŞ-da təhsil müddətinin yüksəlməsi əhalinin gəlirlərinin ən azı 25% artmasına səbəb olur. Bu yalnız ABŞ-a yox, digər inkişaf etmış ölkələrə xas olan cəhətdir. Lakin onun əhalinin gəlirlərinın artmasına təsiri müxtəlifdir. Bu ölkələrdəki sosial-iqtisadi vəziyyətdən, institusional mühitdən, bölgü münasibətlərindən və digər faktorlardan asılıdır. Qeyd etmək lazımdır ki, hal-hazırda Azərbaycanda tədris olunan iqtisadi nəzəriyyədə, insan kapitalına iqtisadi inkişafı təmin edən əsas amil kimi baxılmır. Bəzi hallarda ümumiyyətlə bunun haqqında heç söhbət də açılmır.

Uzun illər iqtisadi inkişafı stimullaşdıran və ona təkan verən əsas amil kimi fiziki kapital və işçi qüvvəsi hesab edilmişdir. Lakin Dünya Bankının mütəxəssislərinin hesablamalarına əsasən dünyanın 192 ölkəsində ümumi gəlirin 16%-ni fiziki kapital təşkil edir. Lakin təhsil səviyyəsini özündə əks etdirən insan kapitalı ümumi sərvətin yalnız 64%-ni təşkil edir [1]. İnkişaf etmiş ölkələrdə isə bu səviyyə daha da yüksəkdir.

İqtisadi fikir tarixindəki mövcud vəziyyətə uyğun olaraq iqtisadi artım modellərində, məsələn neoklassik nəzəriyyədə də əsas amil kimi fiziki kapital və işçi qüvvəsinin həcmi götürülür [3]. Yalnız son illər insan kapitalının iqtisadi artıma təsir göstərən endogen faktor kimi iqtisadi artım modellərində tətbiq edilməyə başlanmışdır [4], [5].

İnsan kapitalının əsas rol oynadığı iqtisadi artım modellərində iqtisadi artımın hansı faktorlar hesabına baş verdiyini araşdırmaq mümkündür. Prinsip etibarilə insan kapitalına yönəldilən investisiyalar müəyyən bir zaman müddətindən sonra effekt verə bilər. Zaman faktoru isə kapitalın indiki dəyəri ilə gələcək dəyəri arasında fərqin mövcud olduğunu göstərir. Aydındır ki, hər bir sahəyə qoyulan investisiyalar müəyyən zaman intervalından (il, ay və s.) mənfəətin əldə olunmasını nəzərdə tutur. Əgər söhbət insan kapitalına qoyulan investisiyalardan gedirsə, məsələn təhsilə yönəldilən investisiyaların dəyəri, bank faizləri və kapitalın gələcək dəyəri nəzərə alınmaqla əldə edilə biləcək gəlirdən çox olmamalıdır. Bu halda investisiya qoyuluşu investor tərəfindən qeyri-gəlirli bir sahə kimi rədd ediləcəkdir. Son illər insan kapitalının inkişafına istiqamətlənmiş investisiyalarla bağlı bazar iqtisadiyyatında ixtisaslı kadrlara olan tələbatlarla əlaqədar əmək bazarında tələb ilə təklifin tarazlıq vəziyyətinin əmələ gəlməsində yeni məsələlər meydana çıxmağa başlamışdır. Məsələ ondan ibarətdir ki, əgər hər hansı bir şirkət öz işçilərini yeni texnologiyalara yiyələnməklə əlaqədar təlimlərə (bəzi hallarda bu təlimlərin qiyməti çox yüksək olur) cəlb etdirsə, onda o işçi daha məhsuldar calışır və daha yüksək əmək haqqı ilə qiymətləndirilir. Eyni zamanda digər rəqabət aparan şirkətlər tərəfindən həmin işçinin əməyinə tələb yaranır. Əgər işçi digər şirkətdə çalışmağa üstünlük verirsə, onda o şirkət əvvəlki şirkətə nisbətən daha əlverişli vəziyyətdə olur. Çünki bu işçinin mütəxəssis kimi formalaşmasında digər şirkət müvafiq investisiya qoyuluşu həyata keçirmişdir. Yəni başqa sözlə desək bir şirkət dolayı yolla digər şirkəti subsidiyalaşdırır. Bu halda birinci şirkətin insan kapitalına yönəltdiyi investisiyadan ikinci şirkət daha çox bəhrələnir. Lakin rəqabət aparan iki şirkətin fəaliyyətinin nəticəsindən cəmiyyət daha çox faydalanır. Bu isə insan kapitalının güclənməsinə, ölkədə insan inkişafı indeksinin yüksəlməsinə səbəb olur. Ümumilikdə götürüldükdə, müxtəlif şirkətlər tərəfindən gəlir götürmək məqsədi ilə insan kapitalına yönəldilən investisiyalar son nəticədə cəmiyyətin sosial kapitalının inkişafına stimul yaradır. Bunun meydana gəlmə səbəblərini aşağıdakı qruplara bölmək olar:

- əmək bazarında müasir tələblərə cavab verən işçi qüvvəsinin meydana gəlməsi, iqtisadi inkişafı stimullaşdırmaqla, cəmiyyətin və ümumilikdə sosial kapitalın inkişafına səbəb olur;
- gəlirlərdən olan vergilər (xüsusi ilə vergilərin proqressiv olduğu halda) şirkətlər tərəfindən insan kapitalının inkişafına yönəldilən investisiyalardan olan mənfəəti, sosial faydalanmaya nisbətən azaldır. Çünki yüksək gəlir yüksək vergiyə cəlb olunur;
- ixtisaslı işçilərin işsiz olma ehtimalı ixtisassız işçilərdən daha çoxdur. Deməli, şirkətlər insan kapitalını inkişaf etdirməklə, işsizliyin səviyyəsini aşağı salır, bu isə cəmiyyətin sosial problemlərinin həllinə səbəb olur.

Göründüyü kimi insan kapitalının inkişafı iqtisadi artımı tə-

min etməklə cəmiyyətin sosial kapitalının güclənməsinə gətirib çıxarır. Son zamanlar iqtisadi ədəbiyyatda dövlət tərəfindən təhsilə yönəldilən investisiyaların iqtisadi artımla əlaqəsini tədqiq edən elmi məqalələrin sayı artmaqdadır. Müasir dövrdə, texnologiyaların həlledici bir rol oynadığı şəraitdə iqtisadi artım mövcud fiziki kapitaldan çox, insan kapitalının keyfiyyəti ilə müəyyən olunur. Belə olan şəraitdə dövlət tərəfindən həyata keçirilən sosial-iqtisadi siyasət də öz növbəsində işçi qüvvəsinin əmək bazarının tələblərinə uyğun şəkildə hazırlanması zəruriyyətini meydana çıxarır. Fiziki kapitalın yeniləşməsi müvafiq investisiya resurslarını tələb etdiyi kimi, insan kapitalının da inkişafı müvafiq investisiya resurslarını tələb edir.

İlk dəfə R.Lukas kapital yığımını iki hissəyə – fiziki və insan kapitalına ayırmışdı [5]. Sonralar XX əsrin 90-cı illərində Q.Menkyu, D.Romer, D.Ueyl tərəfindən aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, inkişaf etmiş ölkələrdə insan kapitalının adambaşına düşən ümumi daxili məhsulun (ÜDM) artımında xüsusi çəkisi 31%, fiziki kapitalın xüsusi çəkisi isə 29% təşkil etmişdi. İqtisadi inkişaf və əməkdaşlıq təşkilatına daxil olan 22 ölkə üzrə isə bu göstəricilərin səviyyəsi 14% və 37% təşkil etmişdir. Yəni insan kapitalı iqtisadi inkişaf səviyyəsinə daha çox təsir göstərir. Bu ölkələrin yüksək texnologiyalı məhsullar bazarında xüsusi çəkiləri yüksəkdir və yeniliklər əsasında rəqabət aparırlar.

Azərbaycanın regionlarının iqtisadiyyatın hərtərəfli inkişaf etdirilməsi üçün və ümumilikdə iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin dayanıqlı və dinamik inkişafının təmin edilməsi bütün səviyyələrdə insan kapitalından və onların bilik və bacarıqlarından düzgün istifadə edilməsindən asılıdır.

İnkişaf etmiş ölkələrdə insan kapitalının keyfiyyəti, onun sosial-iqtisadi inkişafın səviyyəsinə təsiri və səmərəliliyinin riyazi-iqtisadi modellərin vasitəsi ilə qiymətləndirilməsi üzrə fundamental elmi-tədqiqat işləri aparılır [5,6,7]. Eyni zamanda inkişaf etmiş ölkələrdə insan kapitalına yönəldilmiş investisiyaların həcmi, fiziki kapitalın inkişafına yönəldilmiş investisiyalardan daha yüksəkdir [4].

Cədvəl 1

**ABŞ-da insan kapitalının inkişafına yönəldilmiş investisiyaların istehsal investisiyalarına olan nisbəti (%)**

| Sahələr | 1970 | 1980 | 1985 | 1990 |
|---|---|---|---|---|
| **Təhsil** | 50 | 42 | 45 | 55 |
| **Səhiyyə** | 54 | 63 | 76 | 101 |
| **Sosial təminat** | 90 | 107 | 123 | 162 |
| **Cəmi** | 194 | 212 | 244 | 318 |

Cədvəl 1-dən göründüyü kimi, 1990-cı ildə belə insan kapitalının inkişafına yönəldilmiş sosial xərclər istehsal xərclərinə nisbətən 3 dəfə çox olmuşdur. Azərbaycanda həyata keçirilən sosial-iqti-

sadi islahatlar nəticəsində ümumi daxili məhsulun (ÜDM), dövlət büdcəsinin gəlirlərində, əhalinin həyat səviyyəsində yüksək artım templəri müşahidə olunmağa başlamışdır.

Hal-hazırda Azərbaycanda neft sektorunun inkişafı ilə bağlı iqtisadiyyata yönəldilən investisiyaların payı 1995-2003-cü illər ərzində 8,5 dəfə artmışdır (cədvəl 2) [9].

Cədvəl 2

**İqtisadiyyata yönəldilən investisiyalar**

| illər | 1995 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|---|
| **İnvestisiya qoyuluşu** | | | | | | | |
| **mlrd. man** | 2403,4 | 7475,5 | 6469,1 | 6448,9 | 7272,5 | 13590,1 | 20462 |
| **mln. dollar** | 544,0 | 1932,2 | 1571 | 1441,4 | 1561,8 | 2796,6 | 4166 |
| **Xarici investisiyalar:** | | | | | | | |
| **mlrd. man** | 1657 | 5695 | 4493 | 4147,5 | 5083,9 | 10859,9 | 16074,5 |
| **mln. dollar** | 375,1 | 1472 | 1091 | 927 | 1091,8 | 2234,9 | 3273,3 |
| **Daxili investisiyalar:** | | | | | | | |
| **mlrd. man** | 746,4 | 1780,5 | 1976,1 | 2302,4 | 2188,6 | 2730,2 | 4387,5 |
| **mln. dollar** | 168,9 | 460,2 | 479,9 | 514,4 | 470 | 562,7 | 893,5 |

Şübhəsiz ki, iqtisadiyyata yönəldilmiş investisiyalar nəticəsində insan kapitalının inkişafı üçün də əlverişli şərait yaranmışdır. Məhz bu baxımdan Azərbaycanda dövlət tərəfindən qəbul edilmiş bir çox proqramlarda neft sektorunun inkişafı nəticəsində əldə olunmuş gəlirlərin insan inkişafına istiqamətləndirilməsi üçün xüsusi tədbirlər nəzərdə tutulmuşdur. Hal-hazırda Azərbaycan iqtisadi artım templərinə görə dünyada ən aparıcı yerlərdən birini tutur. 1995-2003-cü illər ərzində dövlət büdcəsindən təhsilə yönəldilən vəsaitlər 375,8 mlrd. manatdan 1174,2 mlrd. manata qədər qalxmışdır. Bu zaman artım 3,12 dəfə olmuşdur. Həmin illər ərzində səhiyyə xərcləri cəmi 1,86 dəfə artaraq 2003-cü ildə 276,6 mlrd. man təşkil etmişdir.

Hələ 1965-ci ildə Uzeva öz tədqiqatlarında sübut etdi ki, iqtisadi inkişafın əsas amili kimi məhz insan kapitalı əsas götürülməlidir [10].

## ƏDƏBİYYAT


1.Человеческая проблема: новое измерение социально-экономического прогресса. М., Изд-во "Права человека", 2000.

2. Караев И.А. Современные проблемы человеческого развития. Основные тенденции социально-экономического развития Азербайджана на современном этапе. Баку, Элм, 2000, с.3-8.

3. Интрилигатор М. Математические методы оптимизации и экономическая теория. М.1971, 606 с.

4. Нуреев Р.М. Экономика развития модели становления рыночной экономики. Москва. Инфра-М. 2001, 239 с.

5. Lucas R. On the mechanizm of economic development. Journal of

Menotory Economics, 1988, vol 22. p.3-42.
6. Romer P.M. (1986). İncreasing returus and longrun growth. Jourual of Peliticel Economy 94: 1002-1037.
7. Romer P.M. (1987). Growth bastd on increasing returus dne to specialization. American Economic Review. 7: 56-62.
8. Морцинкевич Б.И.,Собелева И.В. Экономика человека. М., 1995, с.47.
9. Azərbaycanın statistiк göstəriciləri 2004. Azərbaycan Dövlət Statistiкa Komitəsi. 2004, s.396.
10. Uzawa H. Optimum teclinical in an aggreqative model of economic drowth. Journal of Politicel Economy 77: 628-652.

## ЭКОНОМИЧЕСКИЙ РОСТ И ЧЕЛОВЕЧЕСКИЙ КАПИТАЛ

**И.А.КАРАЕВ, С.Г.СУЛЕЙМАНОВА**

### РЕЗЮМЕ

В данной работе рассмотрен экономический рост и его связь с одним из его основных факторов–человеческого капитала. Долгие годы основными факторами, стимулирующими и дающими толчок экономическому развитию, считались физический капитал и трудовые силы.

Появление понятия человеческий капитал и повышение его роли в процессе экономического роста стало причиной появления новых теорий в математико-экономическом моделировании.

Отмечена важная роль человеческого капитала в экономическом развитии Азербайджана.